UOT 37.01.

***Mədət İlham oğlu Kazımov,***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# QEYRİ-STANDART DƏRS AZƏRBAYCAN DİLİ TƏLİMİNİN TƏŞKİLAT FORMASI KİMİ

***Мадат Ильхам оглу Кязымов,***
*Азербайджанский Государственный Педагогический Университет*

# НЕСТАНДАРТНЫЕ УРОКИ КАК ФОРМА ОРГАНИЗАЦИИ ОБУЧЕНИЯ АЗЕРБАЙДЖАНСКОМУ ЯЗЫКУ

***Madat Ilham Kazimov,***
*Azerbaijan State Pedagogical University*

# NON-STANDARD LESSONS AS A FORM OF ORGANİZATİON OF TEACHİNG THE AZERBAİJAN LANGUAGE

**Xülasə:** Məqalədə Azərbaycan dili təliminin əsas təşkilat forması kimi dərsdən, müasir zamanda onun yeni xüsusiyyətlər kəsb etməsindən bəhs olunur. Azərbaycan dili dərslərinin xüsusi tipi kimi qeyri-standart dərslərin xarakterik cəhətləri, şagird inkişafında rolu təhlil edilir. Həmçinin qeyri-standart dərslərin növləri qruplaşdırılır və onların tədqiqata cəlb olunmasının vacibliyi əsaslandırılır.

***Açar sözlər:*** *Təlimin təşkilat forması, qeyri-standart dərs, fəal dərs, qeyri-standart dərsin strukturu, dərs-müzakirə*

**Резюме:** В статье говорится об уроке как основной организационной форме преподавания азербайджанского языка, о его новых особенностях в современном периоде. Как специальный тип уроков азербайджанского языка анализируются характерные особенности нестандартных занятий, роль в развитии ученика. Также группируются виды нестандартных занятий, и обосновывается важность их привлечения к исследованию.

***Ключевые слова:*** *организационная форма преподавания, нестандартный урок, активный урок, структура нестандартного урока, занятие-дискуссия*

**Summary:** The article deals the basic forming of the organization Azerbaijan language education lesson, in modern time gain its new features. The lesson of Azerbaijan language as special type characteristic features of non- standard lesson examine the role of the student's life. As well the types of non-standard lessons group and substantiated the necessary of attracted in their research.

***Key words:*** *The form of the education organization, non-standart lesson, active lesson, the structure of non-standart lesson, lesson-arguement*

İnsanlar öz təhsil ehtiyaclarını dərk etdikləri zamandan onu təşkil etmək üçün araşdırmalar aparmış, özlərinin bu arzularını reallaşdırmaq üçün müxtəlif zamanlarda müddəalar irəli sürmüş, uşaqların maraqlarını cəlb edən formalardan istifadə etməyə çalışmışlar. Beləcə təlimin müxtəlif formalarının yaradılması zərurəti meydana çıxmışdır. Dünyanın pedaqoq alimləri təlimin formaları haqqında düşünmüş onun optimal variantları haqqında fikirlər söyləmişlər. Lakin birmənalı şəkildə dərsin əsas təşkilat forması olması barədə M. Mehdizadə, M. Muradxanov, B. Əhmədov, N. Kazımov, Ə. Ağayev, A. Abbasov, rus pedaqoq alimlərindən H. Sakatkin, T.İ. İlina və başqaları yazmış, onun standart modeli haqqında mahiyyət etibarı ilə bir-birindən o qədər də fərqlənməyən fikirlər söyləmişlər. Bu məsələ ümumi didaktik xarakterli məsələ kimi işlənilməklə yanaşı, müxtəlif fənlərin tədrisi metodikasında, o cümlədən Azərbaycan dili-

nin tədrisi metodikasında da araşdırılmışdır. İstər Azərbaycan dili tədrisi metodikasının banisi A. Abdullayevin araşdırmalarında, istərsə də Ə. Əfəndizadə, H. Balıyev, Y. Kərimov və başqa bu kimi metodist-alimlərin Azərbaycan dili tədrisi barədə araşdırmalarında ümumpedaqoji aspektdə söylənilən fikirlər əsas götürülmüşdür. Dərsin Azərbaycan dili təliminin əsas təşkilat forması olduğu barədə fikirlərə əsaslanmaqla, əsasən, onun müxtəlif fənn kontekstində tətbiq edildiyi məlum olmuşdur. Təbii-ənənəvi forma kimi dərsin məzmun və strukturunda müəyyən dəyişikliklər etməklə ondan müxtəlif məqamlarda (ənənəvi, fəal, interaktiv) istifadə olunmuşdur. Bu da məhz Azərbaycanda ənənəvi inzibati təhsil sistemindən keçid zamanı özünü qoruyub saxlamaqda olan stereotiplərin təsiri ilə baş vermişdir.

XXI əsrin ikinci onilliyini başa vuran və dünyanın qlobal təhsil arenasında müxtəlif dəyişikliklər və yeniləşmələrlə özünü göstərən Azərbaycan təhsilində yeni pedaqoji təfəkkürün formalaşması dərsin mahiyyət və məzmununda da dəyişikliklərin aparılmasını zəruri etmişdir. Bu zərurət, ilk növbədə, müasir təhsilin, o cümlədən ümumi təhsilin müxtəlif fənlərlə tənzimlənən məzmununun reallaşdırılması prosesində meydana çıxmışdır. Belə ki, dərsin ənənəvi məzmunu və strukturu onun iştirakçılarının darıxdığı bir məkana çevrilmişdir. Dərsin maraqsızlığı onun sosial reputasiyasına mənfi təsir göstərməyə başlamışdır. Həm də dərsin standart forması şagirdlərə trafaret təsir göstərməklə özünün əhəmiyyətini itirmişdir. Bir ümumi təhsil fənni olaraq Azərbaycan dilində də bu, baş vermişdir. Odur ki, müəllim və şagirdlərin qarşılıqlı fəaliyyətində yeni yanaşmalara ehtiyacın olması bir zərurət kimi meydana çıxmışdır. Bu, məhz standart dərslərin qeyri-standart dərslərlə əvəz olunmasına cəhdlərin göstərilməsində özünü daha bariz ifadə edir. Həm də bu iddia qlobal təhsil məkanında baş verməklə daha geniş xarakter alır. Azərbaycan dili kurikulumunda göstərilirdi ki, "təlim prosesi uşaqda fəallığı, mütərəqqi düşünməyi, ətrafdakı şeylərə və hadisələrə tənqidi yanaşmağı, müstəqil düşünməyi, müstəqil bilik almağı və fərdi inkişaf etmək bacarığını tərbiyə etməlidir"(3,5). Bu isə daha mütəhərrik və mobil olan məzmunun yaradılması və eləcə də təşkilini tələb edir.

Son dövr araşdırmalardan belə məlum olur ki, Azərbaycanda təlim prosesinin təşkili zamanı motivasiya, humanistləşdirmə, humanitarlaşdırma kimi cəmiyyətlə bağlı olan sosial əhəmiyyətli prinsiplərin nəzərə alınması çox vacibdir. Əks halda təlim prosesinin daha məhsuldar qurulması üçün çətinliklər meydana çıxmış olur.

Azərbaycan dili dərslərinin tipoloji cəhətdən qruplaşdırılmasına yenilik prizmasında baxarkən onun, əsasən, iki qrupdan ibarət olması qənaətinə gəlinmişdir.

1. Standart dərs.
2. Qeyri-standart dərs.

**Standart dərs nədir?**

Standart dərs, ümumiyyətlə, müəyyən formatda qəbul olunmuş dərsdir. Onun özünə məxsus modeli vardır. Eyni zamanda, belə dərslərin məzmun və strukturuna qoyulan müəyyən tələblərdən istifadə edilir. Həm də standart dərslərin təşkilində qəbul olunmuş formatdan kənara çıxma hallarına yol verilmir.

Ümumiyyətlə, sinif-dərs sistemi mövcud olduğu vaxtdan başlayaraq bu günə qədərki müddətdə istifadə edilən bütün dərslər standart dərslər hesab edilir. Bu dərslərin forma və məzmun etibarilə xüsusiyyətlərinin tam mənasında nəzərə alınması bir şərt kimi tələb olunur. Müəllimlər dərslərini istər planlaşdırarkən, istərsə də təşkil edərkən qəbul olunmuş formanı gözləyirlər.

Azərbaycanda həyata keçirilən təhsil islahatları dövründə fəal və interaktiv dərs formalarından təlim prosesindən istifadə edilmiş və bu gün də istifadə olunmaqdadır. Fəal təlimin təşkili forması fəal dərslərdir. Hazırda bu dərslər müəllimin daha çox istifadə etdiyi formalar kimi qəbul olunmaqdadır. Didaktik araşdırmaların nəticəsində belə dərslər bu günün müasir dərsləri hesab olunur. Azərbaycan dili müəlliminin də daha çox istifadə etdiyi belə dərslər hazırda qabaqcıl müəllim təcrübəsi kimi qəbul edilməkdədir. Nəzərə almaq lazımdır ki, qlobal dünyanın dəyişiklikləri daha çox baş verir və istifadə olunan formalar, o cümlədən təlimin təşkili formaları zamanın inkişaf sürətinə cavab verə bilmir. Belə ki, dünyanın standart tələbləri insanları, o cümlədən şagirdləri yorur, onların təlim maraqlarının aşağı düşməsinə səbəb olur. Belə məqamda qeyri-standart yanaşmaların zərurəti

meydana çıxır. Azərbaycan dili təlimində də belə bir hal özünü göstərməkdədir.

**Qeyri-standart dərs.**

Azərbaycan dili dərslərinin tipoloji təsnifatında qeyri-standartlıq nəzərə alınmaqla onun xüsusi qeyd edilməsi vacib məsələ hesab edilir. Əvvəla, nəzərə alınmalıdır ki, Azərbaycan dili praktik xarakterdə olan fəndir. Onun tədrisi prosesində dilçiliyə dair anlayışların funksiyalarının öyrədilməsi didaktik baxımından əhəmiyyətli hesab edilir. Bu fənn üzrə linqvistik anlayışların müəyyənləşdirilməsində onların təlim cəhətdən faydalılığı, nitq inkişafındakı rolu əsas götürülür.

Azərbaycan dili fənni üzrə təlim nailiyyətlərində şagirdin praktik fəaliyyətinə, bu sahədəki irəliləyişlərə üstün yer verilir. Şagirdlərin marağına səbəb olan formalardan istifadə etməkdən çəkinmirlər. Şagirdlər belə təlim şəraitində əldə etdikləri təlim nailiyyətlərindən uğur qazanmaqla məmnunluq hissi keçirirlər. Bütün bunlara Azərbaycan dili dərslərinin təşkilində ənənəvi, yaxud standart dərslərin, təbii olaraq, qeyri-standart dərs forması ilə əvəz olunmasına keçilməsinin zərurətini göstərir. Çünki şagirdi müxtəlif təlim situasiyalarına cəlb etməklə onun marağını artırmaq daha faydalıdır.

Qeyri-standart dərslər bir metodik anlayış kimi Azərbaycan dilinin tədrisi metodikası sahəsində işlənməklə təbii olaraq yeni bir semantika kəsb etmiş və onunla standart dərsdən fərqli cəhətləri özündə ehtiva etmiş və ümumiləşdirmişdir.

Əsasən bunlar hansılardır?

Dərs haqqında danışarkən, ilk növbədə, dərsin müəyyən sinif şəraitində tədris olunmasından söhbət açılır. Azərbaycan dili üzrə şagirdlərin konkret məqsədə çatması üçün onların hər hansı bir sinifdə kollektiv olaraq toplaşması, təlim tapşırıqlarına istiqamətləndirilməsi vacib hesab edilir. Həm də dərsin təşkilində onun nizamlı qurulmasına qoyulan tələblərdən biri hesab edilir. Qeyri-standart dərslərdə bu standart tələb vacib şərt kimi qarşıya qoyulmur. Dərsin qurulmasında, məqsədin və seçilmiş materialların müəyyənləşdirilməsində və bütün bu cəhətlər baxımından işin planlaşdırılmasında müəllimə sərbəstlik verilir. Belə ki, dərs qeyri-standart şəraitdə qurula və aparıla bilər. Bu zaman dərsin qeyri-standart şəraitdə təşkili ilə bağlı müəllimin əsaslandırılmış rəy və təklifləri nəzərə alınır. Eyni zamanda, müəllimin qeyri-standart şəraitdə dərs təşkil edə bilməsi Azərbaycan dili müəllimi kimi onun peşəkarlığının əsas elementi olaraq dəyərləndirilir.

İkinci, qeyri-standart dərs tipindən istifadə edən müəllim metodların seçilməsində də sərbəstdir. O, məqsədinə müvafiq olan metod və üsulları seçə və istifadə edə bilər. Sadəcə bu yanaşma tərzində də onun özünə məxsus yanaşma tərzi və əsaslandırması olmalıdır. Təbii ki, bu metodların seçilməsində dərsin təşkil olunduğu şərait və məkan da diqqət mərkəzində saxlanılmalıdır.

Bu tip Azərbaycan dili dərslərinin sabit bir forması olmur. Adətən, müəllim məqsəd və mövzudan irəli gələn, həm də dərsin keyfiyyətliliyinə təkan verən bir forma seçməli olur. Eyni zamanda, o formaların şagird fəallığını stimullaşdıra bilməsi diqqət mərkəzində saxlanılır. Məsələn, dərsin müşahidələr əsasında aparılması onun əsas atributu ola bilərsə, o zaman dərsin ekskursiya formasında təşkili barədə qərar verilir və dərs məhz ekskursiya əsasında aparılır. Şagirdlər belə dərsdə sərbəst hərəkət edir, təlim tapşırıqlarının yerinə yetirilməsi məqsədi ilə qeydlər aparır və onları məqsədə uyğun olaraq ümumiləşdirirlər.

Qeyri-standart dərsləri həm də açıq dərslər kimi də adlandırmaq olar. Çünki bu tip dərslər şəffaflığına görə də fərqli bir texnologiya hesab olunur. Orada sinif kollektivi ilə yanaşı, maraqlı olan hər kəsin də iştirak etməsinə icazə verilir. Bu, istər-istəməz dərsin daha demokratik və obyektiv xarakter almasına imkan yaradır. Bütün bunlar təbii xarakter daşımaqla şagirdlərin Azərbaycan dilindən praktik dil bacarıqlarına yiyələnmələrini stimullaşdırır.

Azərbaycan dili bir fənn kimi daha çox praktik fəaliyyət tələb edir. Müəllim dil bacarıqlarının mənimsənilməsi prosesində hər zaman bu xüsusiyyəti diqqət mərkəzində saxlamalı olur.

Azərbaycan dilindən qeyri-standart dərslərin metodik xüsusiyyətləri nəzəri baxımdan bu vaxta qədər kifayət qədər araşdırılmamışdır. Lakin müəllimlərimizin dərslərinin müşahidəsinə əsasən belə nəticəyə gəlmək olur ki, qeyri-standart dərslərin adı çəkilməsə də, ondan zaman-zaman qabaqcıl təcrübə kimi istifadə olunmuşdur. Yenilikçi müəllimlərimiz şagirdlərinin yüksək təlim marağını təmin etmək üçün dərs-dis-

kussiya, dərs-müzakirə, dərs-konfrans və sair-dən istifadə etmişlər.

İlkin araşdırmalar göstərir ki, qeyri-standart dərslərin ümumi pedaqoji aspektdə növləri barədə fikirlər müxtəlifdir və onun yüzdən çox çeşiddə təsnif olunduğu məlumdur. Azərbaycan dili fənni üzrə belə dərslərin olması barədə fikirlər vardır. Təcrübələr onu göstərir ki, onların daha çox istifadə olunanı aşağıdakılardan ibarətdir:

- dərs-müzakirə;
- dərs-ekskursiya;
- dərs-konfrans;
- bilik mübadiləsi dərsi;
- yazılı debat dərsi;
- yazı mədəniyyəti dərsi;
- metaforik təfəkkürün inkişafı dərsləri və s.

Bu növlər zəruri metodik problem kimi müasir tələblər baxımından əhəmiyyətli olan məsələlərdir. Onların hər birinin səmərəli tətbiq olunmaq üçün tədqiq olunmasına ehtiyac vardır.

**Problemin aktuallığı.** Bu gün Azərbaycan dili təliminin keyfiyyətini artırmaq üçün onun daha maraqlı qurulması, şagirdlərin diqqətini cəlb etməsi çox vacib hesab edilir ki, bunun üçün onun qeyri-standart yolla təşkili əsas yanaşmalardan biridir. Onun üçün də belə bir tədqiqatın aparılması aktualdır.

**Problemin elmi yeniliyi.** Bu tədqiqatda, ilk dəfə olaraq, Azərbaycan dili üzrə qeyri-standart dərslərin xüsusiyyətləri araşdırılmış və əhəmiyyətliliyi əsaslandırılmışdır.

**Problemin praktik əhəmiyyəti.** Tədqiqatın nəticələrindən Azərbaycan dili dərslərinin təkmilləşdirilməsində, onların keyfiyyətinin yüksəldilməsində istifadə olunacaqdır.

## Ədəbiyyat:


1. Abdullayev A.S. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Maarif, 1978.
2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) V-XI siniflər; Bakı: Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzi, 2015.
3. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür: ideyalar, prinsiplər, problemlər psixopedaqoji araşdırmalar. Bakı: Adiloğlu, 2001.
4. Balıyev H.B. Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Qismət, 2014.
5. Qasımova L.M., Mahmudova R.M. Pedaqogika: Mühazirə kursu. Bakı: 2003.
6. Veysova Z. Fəal interaktiv təlim: müəllim üçün metodik vəsait. Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNİCEF) Azərbaycan Nümayəndəliyi. Bakı, 2008.
7. Восемь идей нестандартных уроков /Pedsovet. supedsovet.su/publ/164-1-0-4491


**E-mail:** mdt.kazmov@mail.ru

**Rəyçi:** *ped.ü.fəls.dok.*, *dos.* Ə. Abbasov
**Redaksiyaya daxil olub:** 09.12.2018.